

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 40 (20.941)

1 mart 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik


## Rəsmi xronika



Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunda tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına ötən müddətdə layihə əsasında görülən işlər barədə ətraflı məlumat verildi. Diqqətə çatdırıldı ki, stadionun yerləşdiyi ərazi inşaat işləri üçün Azərbaycan Dövlət Neft Şirkətinin tikinti təşkilatları tərəfindən hazırlanmışdır. Layihənin icrasına 2012-ci ilin noyabrından başlanmışdır.

2011-ci ildə dövlətimizin başçısının iştirakı ilə təməli qoyulan və 70 min tamaşaçı tutumu olacaq Bakı Olimpiya Stadionu ən müasir standartlara uyğun inşa edilir. İndiyədək layihə çərçivəsində nəzərdə tutulan işlərin bir çox hissəsi həyata keçirilmişdir. Burada əsas stadion, məşqlər üçün köməkçi stadion və yardımçı bina inşa olunur. İdman obyektində əlil tamaşaçılar üçün də bölmələr nəzərdə tutulmuşdur.

Məlumat verildi ki, ərazidə avtomobillər üçün 3 min 100 yerlik park da yaradılacaqdır. Stadionun ətrafında əsaslı abadlıq və geniş həcmdə yaşıllaşdırma işləri aparılacaqdır.

Tikinti işlərinin gedişi ilə tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə tanış olmuşdur.

* * *

Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda yeni salınan Həsən Əliyev küçəsi-Ziya Bünyadov prospekti-Olimpiya Stadionu avtomobil yolunda görülən inşaat işlərinin gedişi ilə tanış olmuşdur.

# Naxçıvanda sahibkarlarla işgüzar görüş keçirilmişdir

Fevralın 28-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla işgüzar görüşü keçirilmişdir.

Tədbirdən əvvəl Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan müxtəlif növ ərzaq və sənaye məhsullarının, əl işlərinin və rəsm əsərlərinin sərgisinə baxış olmuşdur. Sərgidə 80-dən artıq müəssisənin 300 növdə məhsulu nümayiş olunmuşdur. Ali Məclisin Sədrinə muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəricilərі, yeni yaradılmış və yaradılması nəzərdə tutulan istehsal və xidmət sahələri barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, 2014-cü ildə muxtar respublikada kənd təsərrüfatı, emal, yüngül və tikinti sənayesi üzrə, ümumilikdə, 64 layihə maliyyələşdiriləcəkdir.





Sərgi ilə tanışlıqdan sonra muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla keçirilən işgüzar görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: "Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf xəttinin mühüm istiqamətlərindən birini də sahibkarlığın inkişafı təşkil edir. Sahibkarlığı inkişaf etdirmədən, kiçik və orta sahibkarlıq subyektlərini hərəkətə gətirmədən davamlı inkişafa nail olmaq mümkün deyil. İqtisadiyyatı canlandırmağın əsas yolunun sahibkarlığın inkişafından keçdiyini bildirən ulu öndərimiz deyirdi ki: ***"Bizim yolumuz islahatlar yoludur. Yolumuz bazar iqtisadiyyatının inkişaf etdirilməsi yoludur. Yolumuz sahibkarlığın inkişaf etdirilməsi yoludur".***

Hazırda bu yol Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ölkə rəhbərinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 23 noyabr tarixli Fərmanı sahibkarlığın inkişafına əsaslı zəmin yaratmışdır. Bu fərman, eləcə də ölkə rəhbərinin qəbul etdiyi regionların inkişafına dair birinci və ikinci dövlət proqramları regionların davamlı inkişafına, sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə gətirib çıxarmışdır. Cari ilin fevral ayının 5-də regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş tədbirdə ölkə Prezidenti cənab İlham Əliyev sahibkarlara dövlət dəstəyinin bundan sonra da davam etdiriləcəyini bildirərək demişdir: ***"Biz on il ərzində sahibkarlığın inkişafına çox böyük diqqət göstərmişik. Xüsusilə sahibkarların ölkə iqtisadiyyatına sərmayə qoyuluşunu təmin etmək üçün dövlət tərəfindən konkret proqramlar icra olunmuş, maliyyə resursları cəlb edilmişdir".***

Ali Məclisin Sədri demişdir: "Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın, kiçik və orta biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır. Bu sahəyə göstərilən maliyyə dəstəyinin həcmi ildən-ilə artırılmış, iş adamlarının fəaliyyətinə süni müdaxilələr aradan qaldırılmışdır. Antiinhisar tədbirlərinin gücləndirilməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilərək "bir pəncərə" prinsipi əsasında aparılması da öz müsbət təsirini göstərmişdir. Kənd təsərrüfatında çalışan fermerlərin torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi, güzəştli şərtlərlə yanacaq və motor yağları ilə təmin olunması göstərilən qayğının daha bir ifadəsidir. Torpaq mülkiyyətçilərinə vaxtında toxum, gübrə və texnika ilə yardım göstərmək məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bütün rayonlarda filialları yaradılmışdır. İndi deyə bilərik ki, bu sahədə görülən işlər nəticəsiz qalmamışdır. Yeni istehsal sahələri və iş yerləri yaradılmış, əhalinin məşğulluq səviyyəsi yüksəldilmiş, yeni məhsul növlərinin istehsalına başlanmışdır. Tələbatın ödənilməsində yerli istehsalın xüsusi çəkisi əhəmiyyətli dərəcədə artırılmışdır".

Ali Məclisin Sədri "Heydər Əliyev ili"ndə muxtar respublikanın inkişafında, sosial-iqtisadi inkişaf proqramlarının icrasında əməyi olan sahibkarlıq müəssisələrinin bütün kollektivlərinə təşəkkürünü bildirərək demişdir: "Muxtar respublikada sahibkarlıq inkişaf etdikcə Ümumi Daxili Məhsulda bu sahənin xüsusi çəkisi də artır. 2013-cü ildə Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı 87 faiz təşkil etmişdir. Hazırda aqrar sektorda, sənaye, ticarət və nəqliyyatda qeyri-dövlət bölməsinin payı 85-99 faiz dəyişir ki, bu da çox yüksək göstəricidir. Sahibkarlığın inkişafının mühüm göstəricilərindən biri də daxili bazarın istehlak mallarına artan tələbatının ödənilməsidir. Əgər 1996-cı ildə muxtar respublikada 10 adda məhsul istehsal olunurdusa, bu gün 346 növ və 988 çeşiddə məhsul istehsal olunur. Yeni yaradılan müəssisələr əhalinin 106 növ ərzaq və 226 növ qeyri-ərzaq məhsullarına olan tələbatını tamamilə yerli istehsal hesabına ödəmək imkanına malikdir. Möhtərəm Prezidentimiz 2014-cü ili "Sənaye ili" elan etmişdir. Buna uyğun olaraq ardıcıl tədbirlər görülür. Müasir sənaye parklarının yaradılması üzərində iş gedir. 1996-cı ilədək muxtar respublikada cəmi 56 sənaye müəssisəsi vardısa, bu gün yaradılan sənaye müəssisələrinin sayı 438-ə çatmışdır. Başqa sözlə, tarixən aqrar region kimi formalaşan muxtar respublikanın sənaye regionuna çevrilməsi üçün ciddi əsaslar yaradılmışdır".

Qeyd olunmuşdur ki, üzunmüddətli iqtisadi və sosial inkişafın təmin olunmasında sahibkarlıq subyektlərinə, ələlxüsus da kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin göstərilməsi mühüm əhəmiyyətə malikdir. Ötən il muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən sahibkarlara 22 milyon 754 min manat kredit verilmişdir. Bunun 12 milyon 770 min manatdan çoxu və ya 56,1 faizi Sahibkarlığa Kömək Fondu tərəfindən göstərilmişdir. Cari ildə də yüngül və emal sənayesi, kənd təsərrüfatı, tikinti materialları istehsalı sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara kreditlərin verilməsi davam etdiriləcəkdir.

Göründüyü kimi, muxtar respublikada sahibkarlıq mühiti hərtərəfli qayğı ilə əhatə olunub. Bu hesaba əldə olunan nailiyyətlər də ilbəil artıb. Lakin daha yüksək nəticələrə çatmaq üçün istər dövlət orqanlarının, istərsə də sahibkarlıq subyektləri qarşısında mühüm vəzifələr durur. Təcrübə göstərir ki, yerli istehsal müəssisələri, ilk növbədə, öz fəaliyyətlərini daxili tələbatın ödənilməsi istiqamətində qururlar. Digər tərəfdən, məhsul istehsalında yerli xammaldan istifadə olunması hazır məhsulun daha keyfiyyətli, ekoloji cəhətdən daha təmiz və istehlakçılar üçün daha ucuz qiymətə başa gəlməsinə səbəb olur. İqtisadi İnkişaf Nazirliyi yerli xammaldan istifadəyə əsaslanan istehsal müəssisələrinin yaradılmasını bundan sonra da davam etdirməlidir. Yeni müəssisələr yaradılarkən mövcud potensialdan istifadə olunması məqsədilə hər bir rayonun xammal və əmək ehtiyatları nəzərə alınmalı, təkliflər, birinci növbədə, bu istiqamətdə hazırlanmalı və onlara dövlət maliyyə dəstəyinin göstərilməsi diqqət mərkəzində saxlanmalıdır. Yadda saxlamaq lazımdır ki, müəssisənin xammala yaxın yerdə yerləşməsi məhsulun maya dəyərinin aşağı düşməsinə, nəticə etibarilə, istehlakçıya daha ucuz qiymətə satılmasına imkan yaradır. Digər tərəfdən bu, yerlərdə məşğulluq səviyyəsinin yüksəlməsinə də səbəb olur.

"Bu gün sahibkarlıq qayğı mərhələsindən istehsal olunan mal və xidmətlərə görə məsuliyyət mərhələsinə keçməlidir. Muxtar respublika sahibkarları kəmiyyətlə yanaşı, keyfiyyət amilinə də ciddi diqqət yetirməlidirlər", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, həm müvafiq dövlət orqanları, həm də sahibkarlıq subyektləri maraqlı olmalıdırlar ki, istehsal etdikləri məhsul xarici bazara çıxış imkanına malik olsun.

*Ardı 2-ci səhifədə*





Bunun üçün, birinci növbədə, keyfiyyətə diqqət yetirilməlidir. Müasir texnoloji avadanlıqlar quraşdırılmadan və istehsal prosesində texniki standartlara əməl olunmadan keyfiyyətli məhsul istehsal etmək mümkün deyil. Buna görə də İqtisadi İnkişaf Nazirliyi yeni istehsal sahələri ilə bağlı təkliflər verərkən texnoloji nailiyyətlərə əsaslanan layihələrə üstünlük verməli, ixracyönümlü məhsul istehsalının artırılmasına çalışmalıdır. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi bazara keyfiyyətsiz məhsul çıxarılmasına yol verməməlidir. Bazarlarda bolluğa nail olmaq, istehlakçıların seçim imkanlarını artırmaq, onları keyfiyyətli məhsullarla təmin etmək üçün Dövlət Gömrük Komitəsi də, öz növbəsində, idxal olunan məhsulların keyfiyyət amilinə nəzarəti gücləndirməlidir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, istehsal olunan məhsulun, göstərilən xidmətin keyfiyyəti gigiyenik şərtlərə əməl olunmasından da asılıdır. Səhiyyə Nazirliyi öz səlahiyyətləri daxilində istehsal və xidmət obyektlərində sanitar-gigiyenik şəraitə nəzarət etməli, xüsusilə ərzaq istehsalı müəssisələrində və vətəndaşlarla birbaşa ünsiyyətdə olan xidmət obyektlərində işçi heyətinin tibbi baxışdan keçməsinə və sağlamlığını təsdiq edən sənədlərin dürüstlüyünə diqqəti artırmalıdır. Səmərəli fəaliyyət üçün maliyyə dəstəyinin göstərilməsi kifayət etmir. Bunun üçün beynəlxalq təcrübəyə əsaslanan biznes-planların hazırlanması da vacibdir. Biznes-planların səthi tərtibi, imkanların düzgün qiymətləndirilməməsi sahibkarlıq subyektinin problemlərlə üzləşməsinə və götürülmüş kreditlərin vaxtında qaytarılmamasına gətirib çıxarır. Bu kimi halların baş verməməsi üçün İqtisadi İnkişaf Nazirliyi təqdim olunan biznes-planların ciddi təhlilini aparmalı, perspektiv nəzərə alınmaqla kreditlərin verilməsini təmin etməlidir. Həmçinin verilən kreditlərin coğrafiyası da tələbata uyğun genişləndirilməlidir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar müvafiq iqtisadi biliklərə yiyələnməlidirlər. Bunun üçün Biznes Mərkəzinin imkanlarından istifadə edilməli, İqtisadi İnkişaf Nazirliyi və Sahibkarlar Konfederasiyası sahibkarların maarifləndirilməsi, beynəlxalq təcrübənin öyrədilməsi üçün lazımi tədbirlər görməlidirlər.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatının mühüm rola malik olduğunu bildirən Ali Məclisin Sədri demişdir ki, ölkəmizdə aqrar islahatlara ilk dəfə ümummilli liderimizin rəhbərliyi ilə ötən əsrin 90-cı illərinin əvvəlində muxtar respublikamızda başlanmışdır. Bu islahatların müvəffəqiyyətlə başa çatdırılmasının nəticəsidir ki, bu gün kənd təsərrüfatı məhsullarının, demək olar ki, hamısı özəl sektorda, yerli fermer və sahibkarlar tərəfindən istehsal olunur. Dövlət tərəfindən hər cür şərait yaradılmış, kənd təsərrüfatı iqtisadiyyatda üstün istiqamətini qoruyub saxlamışdır. Ölkə Prezidentinin "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2014-cü il 16 yanvar tarixli Sərəncamı qarşıdakı dövrlər ərzində aqrar sahənin inkişafına üstün istiqamət verilməsinin daha bir ifadəsidir. Ölkə rəhbərinin göstərişlərinin icrası istiqamətində ardıcıl tədbirlər görülməli, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aqrar sahənin inkişafında mütərəqqi metodlar tətbiq edilməli, dünyada bu sahədə uğur qazanmış ölkələrin təcrübəsinin öyrənilməsi və mənimsənilməsi üçün əməli işlər həyata keçirilməlidir.

Rayonlar üzrə ixtisaslaşma aparılmalıdır. Bu istiqamətdə müəyyən işlər görülsə də, ciddi irəliləyiş hiss olunmur. Kənd təsərrüfatı məhsullarının istehsalında hər bir rayonun iqlim və torpaq xüsusiyyətlərinin, eləcə də təsərrüfatçılıq ənənələrinin nəzərə alınması vacibdir. Aqrar sektorun intensiv metodlarla inkişafına üstünlük verilməli, elmi nailiyyətlərin kənd təsərrüfatına tətbiqi diqqət mərkəzində saxlanılmalıdır. Məhsuldarlığın yüksəldilməsinə təsir göstərən amillərə Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və yerli icra hakimiyyətləri tərəfindən daim diqqət yetirilməli, məhsul istehsalçıları üçün maarifləndirici tədbirlər təşkil olunmalıdır. Bundan başqa, fermerlərin elektron qeydiyyatı və torpaqların elektron uçot sistemi yaradılmalıdır. Kənd təsərrüfatına yararlı torpaqlardan təyinatı üzrə istifadə olunmasına nəzarət gücləndirilməlidir.

Qeyd olunmuşdur ki, kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsində, xüsusilə heyvandarlıqda iri fermer təsərrüfatlarının yaradılması istiqamətində son illər bir çox işlər görülmüşdür. Lakin kiçik və ailə fermer təsərrüfatları da yaddan çıxarılmamalı, fəaliyyətlərini genişləndirmələri üçün onlara maliyyə dəstəyinin göstərilməsi davam etdirilməlidir. Məhsul istehsalçılarına köməklik göstərilməsi və ərzaq bazarında süni qiymət artımının qarşısının alınması məqsədilə İqtisadi İnkişaf Nazirliyi Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyətləri ilə birlikdə məhsulların birbaşa istehsalçılar tərəfindən satılması üçün yarmarkaların təşkilini bundan sonra da davam etdirməli, mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş məhsulların soyuducu anbarlara tədarükü təmin edilməlidir. Sahibkarlıq subyektlərinin maraq və mənafeləri qorunmalı, onların fəaliyyətinə qanunsuz müdaxilələrin qarşısı bundan sonra da alınmalıdır. İqtisadi İnkişaf Nazirliyi Ədliyyə Nazirliyi ilə birlikdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələlərin yoxlayıcı orqanlara və sahibkarlara izah edilməsi məqsədilə müvafiq təlimlərin keçirilməsini və digər maarifləndirici tədbirlərin görülməsini təmin etməlidir. Ədliyyə Nazirliyi sahibkarlıq subyektlərində yoxlamaların aparılmasının dövriliyi, ardıcıllığı, təkrarlanması və nəticələri haqqında məlumatın əldə olunması məqsədilə yoxlamaların vahid məlumat reyestrinin aparılmasını təmin etməlidir.

Ali Məclisin Sədri demişdir: "Dövlətin sahibkara dəstəyi olduğu kimi, sahibkarın da dövlətə dəstəyi olmalıdır. Ümummilli liderimiz deyirdi: ***"Hər bir sahibkar, iş adamı unutmamalıdır ki, o həm öz mənafeyi, həm də ölkəmizin mənafeyi, ümumxalq mənafeyi üçün çalışmalıdır".*** Sahibkarlar fəaliyyətlərində şəffaflıq prinsipini gözləməli, dövlət qarşısında öhdəliklərə layiqincə əməl etməlidirlər. Bunun üçün isə vergilər vaxtında ödənilməli, işə götürülən işçilərlə əmək müqavilələrinin bağlanması təmin edilməli, əməkhaqları reallığı əks etdirməlidir. Dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılmasında, eləcə də vergidənyayınma hallarının qarşısının alınmasında sahibkarlar da üzərlərinə düşən vəzifəni yerinə yetirməli, tabeliklərində olan işçilərə qayğı göstərməli, normal iş şəraitinin yaradılmasını, istehsal müəssisələrində əməyin təşkilini və təhlükəsizlik qaydalarına əməl olunmasını təmin etməlidirlər".

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi ilə əlaqədar 2014-cü ilin muxtar respublikamızda "Muxtariyyət ili" elan olunduğunu diqqətə çatdırmış, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir hüquqi və fiziki şəxsin də "Muxtariyyət ili"ndə təşəbbüskar olacağına, muxtar respublikanın inkişafı naminə daha səylə çalışacaqlarına əminliyini bildirmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf naziri Famil Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada iqtisadi artımın stimullaşdırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində 2013-cü ildə Ümumi Daxili Məhsul istehsalı 2 milyard 338 milyon 928 min manata yaxın olmuş, sənaye, tikinti, nəqliyyat və kənd təsərrüfatında artımın əldə olunmasında sahibkarlıq müəssisələrinin özünəməxsus rolu olmuşdur. Yeni istehsal və xidmət sahələrinin yaradılması, öz növbəsində, muxtar respublikada istehsal olunan məhsulların və göstərilən xidmətlərin çeşidinin də artmasına, tələbatın yerli istehsal və xidmət hesabına ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına müsbət təsir göstərmişdir. Qeyd olunmuşdur ki, kəndlərdə məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə 2013-cü ildə müxtəlif istiqamətlər üzrə 52 sahə istifadəyə verilmişdir. Sahibkarların tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi, yeni ixrac bazarlarının müəyyənləşdirilməsi və məhsulların ixracının artırılması məqsədilə ötən il ölkə daxilində və xaricdə keçirilmiş 35 biznes-forum, konfrans, seminar və beynəlxalq sərgilərdə 190 sahibkarın iştirakı təmin edilmişdir.

Sahibkarlar Zakir Məmmədov və İntiqam Hüseynov çıxış edərək muxtar respublikada sahibkarlara göstərilən dövlət qayğısından danışmış, yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 8 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər silikon yastıq, yorğan və yaylı döşək istehsalı sahəsinin, qızıl-gümüş zinət əşyaları, medal və döş nişanlarının hazırlanması sahəsinin, müxtəlif növ şitillərin, giləmeyvə, göbələk, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana kompleksinin, kompot və şirniyyat istehsalı sahəsinin, heyvandarlıq təsərrüfatının, meyvə-tərəvəzqurutma sahəsinin yaradılmasına, maldarlıq və heyvandarlıq təsərrüfatının fəaliyyətinin genişləndirilməsinə sərf olunacaqdır.

Sonda tədbir iştirakçıları Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi ikişafından bəhs edən filmə baxmışlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Qarsda Xocalı soyqırımının 22-ci ildönümü yad edilmişdir

Fevralın 24-də Azərbaycanın Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunda Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma mərasimi keçirilmişdir.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilmişdir.

Azərbaycanın Qarsdakı Baş konsulu Ayxan Süleymanov çıxış edərək demişdir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin və döyüş texnikasının iştirakı ilə şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırımı törətmişlər. Bu hərbi təcavüz zamanı Xocalı şəhəri darmadağın edilmiş, dinc sakinlərə divan tutulmuşdur. Bildirilmişdir ki, Xocalı faciəsinə ilk hüquqi-siyasi qiymət ümummilli liderimiz Heydər Əliyev tərəfindən verilmişdir. Ulu öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul olunmuşdur.

Baş konsul Xocalı soyqırımının dünya dövlətləri tərəfindən tanınması istiqamətində də ardıcıl tədbirlər həyata keçirildiyini bildirmişdir.

Azərbaycan Kültür və Dayanışma Dərnəyinin rəhbəri Göksal Kayğısız çıxış edərək Xocalı soyqırımını təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı törədilmiş ən ağır cinayət kimi dəyərləndirmişdir.



Çıxışlardan sonra "Qazi Qarabağ Azanı" səsləndirilmiş, "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

Mərasimdə Xocalı soyqırımı ilə bağlı hazırlanmış sənədli film və "Xocalıya ədalət" Beynəlxalq Informasiya və Təşviqat Kampaniyası çərçivəsində hazırlanan videomaterial nümayiş etdirilmiş, tədbir iştirakçıları Dağlıq Qarabağ münaqişəsini və Xocalı soyqırımını əks etdirən fotostendlərə, kitab və jurnallardan ibarət sərgiyə baxmışlar. Dağlıq Qarabağ münaqişəsinə, Xocalı soyqırımına və erməni terrorçularının törətdikləri cinayətlərə həsr olunmuş "İrs Miras" jurnalı tədbir iştirakçılarına paylanmış, ehsan süfrəsi açılmışdır.

Tədbirdə Qars valisinin müavinləri Hakan Alkan, Cavat Uyanık, Qars şəhər bələdiyyə sədrinin müavini Zafer Aslanoğlu, Qars vilayəti Jandarma Alay Komutanının müavini yarbay Tuncay Koçak, Qars Qafqaz Universitetinin rektor müavini Mitat Şahin, Ədalət və İnkişaf, Milliyyətçi Hərəkat və Cümhuriyyət Xalq partiyalarının bölgə rəhbərləri, Qars Qafqaz Universitetinin müəllim və tələbələri, Qars ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Tədbir yerli kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmışdır.

**"Şərq qapısı"**

*1992-ci il martın 2-də Azərbaycan dünyanın ən mötəbər dövlətlərarası təşkilatına – Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilmişdir. Bu gün dünya birliyinin üzvü olmaq və beynəlxalq aləmdə cərəyan edən proseslərdə fəal iştirak etmək üçün hər bir dövlət BMT-nin üzvlüyünə daxil olmağı əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Digər bir tərəfdən BMT-yə üzvlük dövlət müstəqilliyinin beynəlxalq aləmdə rəsmiləşməsi və təsdiqi kimi qəbul edilir.*

# Azərbaycan dünyada söz sahibi olan ölkədir

## *Ölkəmizin BMT-yə üzvlüyündən 22 il ötür*

Azərbaycan 1991-ci il oktyabrın 29-da BMT-nin Baş Məclisinə üzvlük haqqında müraciət etmişdir. 1992-ci il fevralın 14-də Azərbaycanın müraciəti BMT Təhlükəsizlik Şurasında müzakirə olunmuş və beləliklə, BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respublikasının BMT-nin üzvlüyünə qəbul olunması barədə qətnamə qəbul edilmişdir. Həmin gün Nyu-Yorkda BMT-nin mənzil qərargahında Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırılmış, 4 gün sonra isə Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi fəaliyyətə başlamışdır.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin BMT ilə əlaqələri sistemli xarakter daşımış, fəal və ardıcıllıq prinsiplərinə əsaslanmışdır. Ümummilli liderin təşəbbüsü ilə milli dövlətçilik maraqları üzərində qurulmuş xarici siyasət konsepsiyasının işlənilib hazırlanması, çoxistiqamətli diplomatiyanın reallaşdırılması BMT ilə əlaqələrin yeni səviyyəyə yüksəlməsinə səbəb olmuşdur. Müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə məhz ulu öndər Heydər Əliyev 1994-cü ilin sentyabrında Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək Azərbaycan, Qafqaz regionu və ümumilikdə, dünya üçün həyati əhəmiyyət kəsb edən qlobal məsələlərlə bağlı ölkəmizin mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır.

1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında və 2000-ci ilin sentyabr ayında BMT-də minilliyin sammitində çıxışı zamanı da ulu öndər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyini bir daha bildirmiş, BMT-nin gələcək fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılması ideyasını irəli sürmüşdür. Bu müddət ərzində Azərbaycan həm də BMT-nin müxtəlif orqanları ilə səmərəli əməkdaşlıq qurmuşdur. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, YUNESKO, YUNİSEF və digər qurumlarla sıx əməkdaşlıq edən Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv olan dövlətlərlə də əlaqələrini gücləndirmişdir.

2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan-BMT əlaqələri daha da genişlənmiş, ölkəmiz bu mötəbər qurumda söz sahibi olan dövlətə çevrilmişdir. İlk dəfə Azərbaycan Respublikasının Baş naziri kimi 2003-cü ilin sentyabrında BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edən cənab İlham Əliyev beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlər arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək islahatların vacib məsələyə çevrildiyini bəyan etmişdi. BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini vurğulamış və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdü. Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclası və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyasının 86-cı plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilmişdir. Artıq ölkəmizin bu beynəlxalq qurum çərçivəsində görülən işlərə verdiyi töhfələr sırasında qlobal səviyyədə terrorizmə qarşı aparılan mübarizədə fəal şəkildə iştirakı xüsusilə qeyd edilməlidir.

Azərbaycan Respublikası 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürmüşdür. Azərbaycan seçkilərdə 155 səs toplayaraq 2011-ci il oktyabrın 24-də Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi tarixə düşmüşdür. Azərbaycan 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında Təhlükəsizlik Şurasına sədrlik etmişdir. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla yanaşı, həm də ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir. Bununla əlaqədar olaraq, ölkə başçısı cənab İlham Əliyev demişdir: ***"Müstəqilliyimiz dövründə belə böyük uğurun əldə edilməsi, doğrudan da, tarixi nailiyyətdir. Biz müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu göstərir ki, Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".***

2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Azərbaycan Respublikası bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, ölkəmizin bu quruma hər iki sədrliyi müddətində, ümumilikdə, qurumun 59 açıq və qapalı iclası keçirilmiş, 7 qətnamə, şura sədrinin 3 bəyanatı və 13 mətbuat bəyanatı qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının 1996-cı ildən başlayan sürətli sosial-iqtisadi inkişafı da daim bu beynəlxalq qurumun diqqətində olmuşdur. 1997-ci ilin mayında Birləşmiş Millətlər Təşkilatının rezident əlaqələndiricisi Naxçıvana səfər etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisində nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüş zamanı Naxçıvandakı mövcud durum, blokada şəraiti, iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən işlər və digər məsələlər barədə müzakirələr aparılmışdır. BMT nümayəndələri ötən ilin may ayında muxtar respublikaya növbəti səfər etmişlər. Muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə 130-dan artıq layihəsi icra olunmuşdur.

***Bu gün Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutmuş, BMT-də söz sahibi olan dövlətlərdən birinə çevrilmişdir. Bu isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən xarici siyasət kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf və davam etdirilməsinin nəticəsidir.***

**"Şərq qapısı"**

*Hər il mart ayının 1-i "Ümumdünya Mülki Müdafiə Günü" kimi qeyd edilir. Bu günün qeyd olunmasında məqsəd dünya ictimaiyyətinin diqqətini mülki müdafiə xidmətlərinin, insanların və onların əmlakının xilası, təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin qorunmasına yönəltməkdir.*

## *1 mart Ümumdünya Mülki Müdafiə Günüdür*

# Mülki müdafiənin təşkili əhalinin təhlükəsiz yaşayışına təminat yaradır

Beynəlxalq Mülki Müdafiə Təşkilatına dünyanın 50-dən çox dövləti qoşulmuş, bir sıra ölkələr isə müşahidəçi qismində onun tədbirlərində iştirak edir. Azərbaycan Respublikası 1993-cü ildə Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvlüyünə qəbul edilmişdir. Hazırda dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da mülki müdafiə sisteminin qarşısında iki mühüm məsələnin həlli durur. Birincisi, əhalini və iqtisadiyyatı təbii fəlakətlərin, habelə istehsalatda, nəqliyyatda və məişətdə baş verən dəhşətli qəzaların nəticələrindən xilas etmək, ikincisi isə müharibə dövründə dinc əhalini və iqtisadiyyatı qorumaqdır.

Azərbaycanda 1961-ci ildə yaradılmış ilk mülki müdafiə sistemi sovet imperiyasının mənafeyinə tabe etdirildiyindən respublika ərazisinin çox böyük hissəsi mühafizədən kənarda qalmış, ölkənin hərbi-strateji və iqtisadi əhəmiyyəti, təbii və digər xüsusiyyətləri nəzərə alınmamışdır. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra mülki müdafiə sisteminin formalaşdırılması yolunda qətiyyətli addımlar atılmış, mühafizə işini müasir tələblər səviyyəsində qurmağa imkan verən bir çox normativ-hüquqi sənədlər qəbul olunmuşdur. Dahi şəxsiyyətin səyi nəticəsində mülki müdafiəyə rəhbərlik gücləndirilmiş, yerlərdə mülki müdafiə işinin təşkilinə nəzarət İcra Hakimiyyəti başçılarına, xalq təsərrüfatı sahələrində isə müvafiq sahə rəhbərlərinə həvalə edilmiş, təşkilatlarda mülki müdafiə tədbirlərinin planlaşdırması və təşkil edilməsi məqsədilə mülki müdafiə qərargahları fəaliyyətə başlamışdır. Bu dövrdə ölkəmizdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması məqsədilə mülki müdafiə sistemi daha da təkmilləşdirilmiş, təbii və texnogen fəlakətlərdən əhalinin etibarlı şəkildə mühafizəsinin təşkili üçün konkret addımlar atılmış, 1997-ci il iyunun 10-da "Yanğın təhlükəsizliyi haqqında", 1997-ci il dekabrın 30-da "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Ölkə başçısının müvafiq fərmanı ilə 2005-ci il dekabrın 16-da Azərbaycan Respublikasında Fövqəladə Hallar Nazirliyi təşkil olunmuş, onun maddi-texniki bazası gücləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası təbii və texnogen ərazi olduğundan burada ehtimal olunan fövqəladə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması daim diqqət mərkəzində saxlanılır. 2004-cü ildə Naxçıvan Mülki Müdafiə Mərkəzinin tikilib istifadəyə verilməsi, onun bazasında əlahiddə mülki müdafiə xilasetmə taborunun yaradılması bu sahəyə göstərilən diqqətin daha bir ifadəsidir.

Son illər muxtar respublikamızda ehtimal olunan təbii və texnogen xarakterli fövqəladə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğınların söndürülməsinin təşkili və mülki müdafiə işinin təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Ali Məclis Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması da bu məqsədə xidmət edir. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inkişafına xüsusi diqqət göstərilmiş, onun maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir. Nazirlik sistemində struktur islahatlarının aparılması, idarəetmənin təkmilləşdirilməsi, peşəkar kadr potensialının yaradılması, müasir texnika və texnologiyaların iş prosesində tətbiqi diqqət mərkəzində saxlanmış, bununla bağlı kompleks tədbirlər həyata keçirilmişdir.

2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası əsaslı təmir işlərindən sonra, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələri, 2013-cü ildə isə Şərur və Babək rayon şöbələri üçün yeni inzibati binalar və texniki qarajlar tikilərək istifadəyə verilmişdir. Yanğın təhlükəsizliyi şöbələri üçün yaradılan müasir iş şəraiti muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin olunması, baş verə biləcək yanğınların vaxtında qarşısının alınması və söndürülməsi üçün yanğından mühafizə bölmələrinin fəaliyyətinin gücləndirilməsinə təkan vermişdir.

Muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi, onların nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəzaxilasetmə əməliyyatlarının aparılması, zərərçəkmişlərə ilkin yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılaraq onun fəaliyyətinin təşkili üçün zəruri tədbirlər həyata keçirilmişdir. 2010-cu ildə isə Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi fəaliyyətə başlamışdır. Nazirliyin mühüm fəaliyyət sahələrindən biri olan Aviasiya Manqasının yaradılması və fəaliyyətinin təmin olunması istiqamətində də müvafiq addımlar atılmış, 2010-cu ildə ən müasir standartlara cavab verən Mİ-17-1B vertolyotu gətirilmiş və Mülki Müdafiə Alayının təlim mərkəzində vertolyot meydançası tikilmişdir. Bu da fövqəladə hallar zamanı çevik müdaxilənin həyata keçirilməsində, rəhbər heyətin və xilasedicilərin hadisə rayonuna operativ çatdırılmasında mühüm rol oynayır.

Ötən il fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında mühüm tapşırıqları yerinə yetirən Mülki Müdafiə Alayının maddi-texniki bazası əhəmiyyətli dərəcədə təkmilləşdirilərək onun ərazisində avtomobil parkı və təlim mərkəzi müasir standartlara uyğun tikilib istifadəyə verilmişdir. Avtomobil parkının texniki bokslarında, ümumilikdə, 36 ədəd xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanılması və təlimata uyğun texniki xidmətlərin göstərilməsi üçün lazımi şərait yaradılmışdır. Təlim mərkəzində şəxsi heyətin peşəkarlığının və fiziki hazırlığının artırılması, onların peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə maneələr zolağı, alpinist və mühəndis şəhərcikləri yenidən qurulmuşdur. Radioaktiv və kimyəvi təhlükəli obyektlərdə qəzalar zamanı əhalinin və ərazilərin zəhərlənmələrdən mühafizəsinin təmin edilməsində, onların qarşısının alınması və ləğv edilməsində iştirak edən şəxsi heyətin bilik və bacarığının artırılması üçün kimya şəhərciyi təkmilləşdirilərək maddi-tədris bazası müasirləşdirilmişdir.

Nazirliyin inzibati binasında yaradılan Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin idarəetmə zalı fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı müvafiq qurumlarla birlikdə baş vermiş hadisənin təhlili edilməsi və həlli üzrə qərarların qəbulu üçün nəzərdə tutulmuşdur. İdarəetmə zalı hadisə yerini birbaşa izləmək üçün monitorla təchiz edilmiş, burada videokonfrans əlaqəsi qurmaq və baş verən hadisəni izləmək üçün zəruri qurğular quraşdırılmışdır. Əməliyyat zalındakı elektron xəritədə muxtar respublikanın bütün infrastrukturu haqqında məlumat bazası yerləşdirilmişdir.

Muxtar respublikada fövqəladə hallar zamanı əhalinin tələbatının ödənilməsi, yaşayışın və qidalanmanın normal təşkil edilməsi sahəsində də ardıcıl tədbirlər görülür. Ötən il Mülki Müdafiə Alayında səfərbərlik ehtiyat anbarı yaradılmışdır.

Mülki müdafiənin başlıca vəzifələrindən biri də əhalinin mülki müdafiə və fövqəladə hallar zamanı maarifləndirilməsidir. Ötən müddət ərzində bu sahədə işlər günün tələbləri səviyyəsində qurulmuş, idarə, müəssisə və təşkilatlarda tədris qrupları yaradılaraq mülki müdafiə dərslərinin keçilməsinə metodik yardım göstərilmiş, bir çox müəssisələrdə mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin təmin olunması ilə bağlı maarifləndirici tədbirlər keçirilmişdir.

*Fövqəladə Hallar Nazirliyinin kollektivi bundan sonra da əhalinin sağlamlığı və dövlət əmlakının qorunması istiqamətində səylə çalışacaq, muxtar respublikada mülki müdafiənin təşkili diqqət mərkəzində saxlanılacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Əli bəy Hüseynzadənin 150 illik yubileyi münasibətilə konfrans



Dünən Naxçıvan Dövlət Universitetində Azərbaycan ictimai fikir tarixinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin anadan olmasının 150 illik yubileyi münasibətilə "Həqiqətin böyüyü: Əli bəy Hüseynzadə – 150" mövzusunda elmi konfrans keçirilib.

Konfransı giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov açaraq bildirib ki, 2014-cü il yanvar ayının 21-də Ə.Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sərəncam imzalayıb. Sərəncamda bu görkəmli şəxsiyyətin türk dünyası xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynadığı, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürdüyü və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak etdiyi, eləcə də çoxşaxəli fəaliyyəti boyunca yaratdığı zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi sayəsində Azərbaycan maarifçiliyi tarixinə qiymətli töhfələr verdiyi vurğulanır.

Konfransda filologiya üzrə fəlsəfə doktoru Seyfəddin Eyvazovun "Əli bəy Hüseynzadənin həyatı və yaradıcılığı", filologiya elmləri doktoru, professor Sədaqət Həsənovanın "Əli bəy Hüseynzadə və ədəbi dil problemləri", filologiya elmləri doktoru Hüseyn Həşimlinin "Əli bəy Hüseynzadə və Avropa ədəbiyyatı", filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərovun "Füyuzat" jurnalında türk ədəbiyyatının təbliğ və tərənnümü" mövzularında məruzələri dinlənilib.

"Bizə fədai lazımdır! Türk hissiyyatlı, İslam etiqadlı, Avropa (müasir) qiyafəli fədai!" Məruzələrdə qeyd edilib ki, XX əsrin əvvəllərində "Füyuzat" jurnalında yer almış bu uzaqgörən çağırış tarixin müxtəlif dövrlərində hərbi, ideoloji təzyiqlərə məruz qalan xalqımız, eləcə də türk dünyası üçün bir nicat yolu, qurtuluş düsturu idi. Müasirlərinin "Qafqaz müsəlmanlarının atası", "Türk xalqlarına kimliyini bildirən dahi", "Bütün türk dünyasının mücahidi", "Türkçülüyün babası (atası)" adlandırdıqları, aktuallığını bu gün də saxlayan, yuxarıda qeyd olunan fikirlərin müəllifi Əli bəy Hüseynzadə şərəfli ömrünü türk millətinin, o cümlədən Azərbaycan xalqının milli oyanış və özünüdərkinə, istiqlal mücadiləsinə, maarif və mədəniyyətinin yüksəlişinə, milli dövlətçiliyin formalaşdırılmasına həsr edib.

Vurğulanıb ki, türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən Əli bəy Hüseynzadə zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi ilə Azərbaycan maarifçiliyinə qiymətli töhfələr verib.

XX əsrin sonlarında Azərbaycanın dövlət müstəqilliyinə qovuşması Əli bəy Hüseynzadə şəxsiyyətini yenidən ictimai-siyasi fikir tariximizə qaytarıb. Onun əsərləri, eləcə də "Füyuzat" jurnalının tam dəsti latın əlifbasında nəşr edilib. Əli bəy Hüseynzadənin ictimai-siyasi, ədəbi fəaliyyətinə dair xeyli araşdırmalar aparılıb, dəyərli monoqrafiyalar nəşr edilib, çoxsaylı elmi, elmi-kütləvi məqalələr çap olunub.

Konfransa Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov yekun vurub.

**Səbuhi HÜSEYNOV**

## Növbəti qələbəyə doğru

***Futbol üzrə Azərbaycan I divizionunun 19-cu turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası Tovuzun "Turan-T" futbol komandasını qəbul edəcək. Artıq oyunu idarə edəcək hakimlər briqadasının da adı açıqlanıb. Belə ki, Naxçıvan Muxtar Respublika Stadionunda oyunun başlama fitini çalacaq referi Fariz Yusifov olacaq. Ona bu görüşdə Cavanşir Yusifov və Akif Əmirli kömək edəcəklər. Dördüncü hakim kimi isə meydana Cəmaləddin Hacıyev çıxacaq.***

Oyuna ciddi hazırlaşan və xal itirməyi ağlından belə keçirməyən "Araz-Naxçıvan" komandası gündə iki dəfə olmaqla bu matçın hazırlıqlarına yekun vurub. Sonuncu dəfə dünən məşqə çıxan qırmızı-ağlar artıq oyunun başlama saatını gözləyirlər. Komandamızın heyətində iki itkinin olması baş məşqçi Əsgər Abdullayevi qayğılandırır. David Caniyev və Fərman Qəmbərovun cəzalı vəziyyətə düşməsini komandamız üçün müsbət qiymətləndirmək olmaz.

"Turan-T" komandası isə Naxçıvana bu gün – oyun günü gələcək. Ötən tur turnir cədvəlinin liderlərindən olan "Qaradağ-Lökbatan"dan xal almağı bacaran tovuzlular muxtar respublika təmsilçisi üçün də təhlükəli rəqib hesab edilirlər. Mövsümün ilk dövrəsində keçirilən matçda komandamız səfərdə rəqibini 2:1 hesabı ilə məğlub etməyi bacarmışdı.

Qeyd edək ki, "Araz-Naxçıvan"-"Turan-T" matçı bu gün Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək. Oyunun başlama saatı 15$^{00}$-dir.

**Ceyhun MƏMMƏDOV**

## Voleybolçular qüvvələrini sınamışlar

Naxçıvan Türk Liseyinin idman zalında "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhər ümumtəhsil məktəblərinin və Naxçıvan Türk Liseyinin komandaları arasında voleybol üzrə birincilik keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Şəhər Təhsil Şöbəsinin təşkil etdikləri yarışda Naxçıvan Türk Liseyinin komandası daxil olmaqla, 15 komanda mübarizə aparmışdır.

Yarışdan əvvəl Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev və Naxçıvan Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev çıxış edərək idmançılara uğurlar arzulamışlar. Olimpiya sistemi ilə keçirilmiş birincilikdə Naxçıvan şəhərindəki 6 nömrəli tam orta məktəbin komandası qalib olmuşdur. 15 və 9 nömrəli tam orta məktəblərin komandaları isə ikinci və üçüncü yerləri tutmuşlar.

Sonda fəxri yerləri tutan komandalar və fərqlənən idmançılar təşkilatçıların hədiyyələri və diplomları ilə mükafatlandırılmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Mart ayında kənd təsərrüfatı sahəsində hansı işlər görülməlidir?

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi torpaq mülkiyyətçilərinə, həmçinin fermerlərə bitkiçilik və heyvandarlıq sahələrində mövsümlə bağlı aşağıdakı işlərin görülməsini tövsiyə edir.***

***Meyvə və üzüm bağlarında***

Aran bölgələrdə tumurcuqların şişməsi müşahidə edilməyən ağaclarda budama işləri davam etdirilməli, dağlıq və dağətəyi bölgələrdə budama işlərinə başlanmalıdır. Əgər temperatur +5 dərəcədən yuxarıdırsa, ağaclara xəstəlik və zərərvericilərə qarşı 1 faizli DNOK məhlulu çiləmək mümkündür. Cavan meyvə bağlarında isə hər hektara 20 ton üzvi gübrə, 300-350 kiloqram fosfor və 100-120 kiloqram kalium gübrələrinin verilməsi məqsədəuyğundur. Bundan başqa, meyvə bağlarında tezyetişən sortlarda vegetasiya inkişafı müşahidə edilərsə, hava şəraitindən asılı olaraq, bar orqanlarının şaxtadan mühafizə edilməsi məqsədilə cərgə aralarında şaşkalar yandırılmalı, çətin yanıbalışan bitki qalıqları, küləş, üzvi gübrə və ya yaş odunla tüstüləndirmə aparılmalıdır. Havanın hərarəti imkan verərsə, az məhsuldar meyvə bağlarında sortdəyişmə məqsədilə calaq işi aparılmalı, məhsuldar sortlardan meyvə tingləri tədarük edilməli və əkilməlidir. Bu dövrdə aran bölgələrindəki üzüm bağlarında üzüm tənəklərinin üstü açılaraq quru budama işi aparılır.

***Əkinçilikdə***

Yaz əkinləri üçün şum qaldırılmalı, yazlıq arpa və buğda əkinlərinə başlanmalı, tərəvəz və dənli-paxlalı bitkilərin toxumları əkindən əvvəl dərmanlanmalıdır. Mart ayının əvvəllərindən etibarən kartof əkini üçün ayrılmış torpaq sahəsi əkinə hazırlanır, qarşıdakı bir həftə içində isə toxumluq kartof yumruları dərmanlanaraq əkin işi aparılır.

Bu dövrdə istixanalara tərəvəz əkinçiliyi üzrə də işlər davam etdirilərək toxum səpilir, toxum səpilmiş şitilliklərə qulluq göstərilir.

Bol məhsul əldə etmək məqsədilə payızlıq taxıl əkinlərində müşahidə edilən gəmiricilərə qarşı kimyəvi mübarizə işinin aparılması, əkin sahələrinə azotlu yemləmə gübrəsinin verilməsi mart ayının əsas qayğılarındandır.

Mart ayında həmçinin suvarma arxları çıxarılır, arxlar lildən təmizlənir. Bundan sonra torpaq suyu içməyən payızlıq taxıl əkinlərində, eləcə də yazda əkilmiş taxıl sahələrində suvarma işi aparılmalıdır.

***Heyvandarlıqda***

İribuynuzlu heyvan bəslənilən fermalarda doğumun çoxalması və süd istehsalının artması ilə əlaqədar olaraq sağmal inəklərin yem paylarında sulu-şirəli və qüvvəli yemlərin miqdarı artırılmalı, yemlərə A, D, E vitaminləri əlavə edilməli, süd istehsalını artırmaq üçün ehtiyat mənbələrindən istifadə edilməlidir.

Yetişdirilən düyələrin yemlənməsinin normal təşkili ilə yanaşı, mal-qaranın gündəlik gəzintiyə çıxarılmasını təşkil etmək və buzovların bəslənilməsinə diqqəti artırmaq lazımdır.

Qoyunçuluq təsərrüfatında mövsümü çoban və dölçülər ayrılmalı, gündəlik təsərrüfatda növbətçilər təyin edilməlidir. Növbədə olan heyvandarlar yeni doğulan quzuları almayan qoyunların balalarını ağız südü ilə qidalandırılmasına, həmçinin balaları zəif olan qoyunların sağlamlamasına diqqət etməlidirlər.

Quşçuluq təsərrüfatlarının mart ayında cücə götürüb yetişdirmələri çox faydalıdır. Çünki mart ayında götürülən cücələrin sağqalma faizi daha çoxdur.

Eyni zamanda toyuqların məhsuldarlığını 70-80 faizə çatdırmaq üçün onlara qidalanmaları üçün keyfiyyətli yemlərlə yanaşı, süd və süd məhsulları, ət və balıq unu, hər cür yem qalıqları, müxtəlif antibiotiklər və mikroelementlər verilməlidir.

Arıçılar günəşli, sakit və havanın temperaturu +12 dərəcədən yuxarı olan günlərdə arıxanada arı ailələrinə ilk baxış keçirməlidirlər. Hər bir pətək açılmalı, onun quruluğu, ailənin gücü, ana arının varlığı, sürfəli çərçivələrin sayı, yem ehtiyatı miqdarı yoxlanılmalıdır.

Gücü zəif olan anasız arı ailələri isə arıxanadakı ana arılı zəif ailə ilə birləşdirilməklə normal gücə gətirilir. Yem ehtiyatı tükənən və ya normadan az yemi olan ailələrin yem ehtiyatı bərpa olunmalı, arı ailələri keyfiyyətli istiləşdiricilərlə təmin edilməlidir.

Heyvandarlıq təsərrüfatında mütəmadi sanitar-gigiyena qaydalarına əməl edilməklə yanaşı, epizootik plana uyğun baytarlıq tədbirlərinin yerinə yetirilməsinə ciddi fikir verilməlidir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Yeni tamaşa hazırlanır

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı növbəti yaradıcılıq mövsümünün ilk tamaşasının məşqlərinə başlayıb. Bu günlərdə İsveç yazıçısı Henrik İbsenin "Kuklalar evi" pyesinin masaarxası məşqləri aparılır. Tamaşanın rejissoru Tofiq Seyidov, rəssamı Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Fətəli Axundzadədir. Ailə-məişət mövzusunda olan əsərin qayəsində sədaqət dayanır. Hər kəs bir-birinə hörmətlə yanaşmalı, ailə daxilindəki məsələlərdə kompromisə getməli və hər bir iş ümumi razılıqla görülməlidir. Əks halda belə ailələri son anda dağılmaq gözləyir. Bu işdə isə güc ailənin aparıcı qüvvəsi olan ata və ananın üzərinə düşür. Bəs bu problem necə həll olunacaq? "Kuklalar evi" tamaşası bu sualın cavabına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində aydınlıq gətirəcək.

Rejissor tamaşaya daha çox teatrın gənc aktyor və aktrisalarını cəlb edib. 8 obrazın canlandırıldığı səhnə əsərində rolları Nurbəniz Niftəliyeva, Elnur Rzayev, Xalq artisti Şirzad Abutalıbov, Nazlı Hüseynquliyeva, Tahir İsmayılov, Zülfiyyə Zeynalova, Anar Eyvazov və Şölə Novruzbəyli ifa edəcəklər.

**Səməd CANBAXŞIYEV**

## "Naxçıvan Təbriz Mehmanxanası" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

10 aprel 2014-cü il tarixdə saat 11$^{00}$-da "Naxçıvan Təbriz Mehmanxanası" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Səhmdarların növbədənkənar ümumi yığıncağının keçirilməsi reqlamentinin təsdiq edilməsi*

*2. Cəmiyyətin qiymətli kağızlarının dövriyyədən çıxarılması və ləğv edilməsi*

*3. Digər məsələlər.*

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 17***

## Allah rəhmət eləsin

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbova, əzizi
**ELDARIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Bioresurslar İnstitutunun kollektivi institutun direktoru Tariyel Talıbova, əzizi
**ELDARIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Təbii Ehtiyatlar İnstitutunun elmi işçisi Gültəkin Süleymanovaya, atası
**SƏDRƏDDİNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli və institutun professor-müəllim kollektivi Tariyel Talıbova, əzizi
**ELDARIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı və dekan müavini Şəmil Mahmudov Tariyel Talıbova, əzizi
**ELDARIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Sanitar-Karantin Müfəttişliyinin kollektivi
**ELDAR RZAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Botanika kafedrasının müdiri Musa Piriyev və kafedranın kollektivi Tariyel Talıbova, əzizi
**ELDARIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin direktoru Nizami Əzizəliyev və mərkəzin kollektivi Əşrəf Nəcəfova, atası
**MUSA NƏCƏFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 221